

# MÜDAFIƏSIZ ƏMƏK

## Kənd təsərrüfatında qeyri-dominant etnik qruplar

SOCIAL JUSTICE CENTER

# Müdafiəsiz əmək

Kənd təsərrüfatında qeyri-dominant etnik qruplar

Sosial Ədalət Mərkəzi

Tbilisi, 2022

Sənəd Açıq Cəmiyyət Fondunun (OSGF) dəstəyi ilə hazırlanmışdır, onun məzmununa cavabdeh Sosial Ədalət Mərkəzidir.

Sənəddə söylənilən fikirlər  donor təşkilatın mövqeyini əks etdirməyə bilər.

**Rəhbər:** Tamta Mikeladze

**Müəllif:** Kamran Məmmədli

**Araşdırmanın asistenti:**  Tiqran Tarzyan, Ani İsakadze

**Redaktor**: Medea İmerlişvili

**Cild dizaynı**: Salome Latsabidze

Təşkilatın yazılı icazəsi olmadan, burada verilən materialı kommersiya məqsədləri üçün yenidən çap etmək, çoxaltmaq və ya yaymaq qadağandır.

**Sitat qaydası**: *Sosial Ədalət Mərkəzi, Kamran Məmmədli,, " Müdafiəsiz əmək - Kənd təsərrüfatında qeyri-dominant etnik qruplar", 2022*

© Sosial Ədalət Mərkəzi

**Ünvan** İ. Abaşidze 12b, Tbilisi, Gürcüstan

**Tel:** +995 032 2 23 37 06

https://socialjustice.org.ge/

info@socialjustice.org.ge

https://www.facebook.com/socialjustice.org.ge

## Məzmun

**Giriş** ........................................................................................................ **Error! Bookmark not defined.**

**Araşdırma metodologiyası və məhdudiyyətlər** .................................................................................. 5

**Beynəlxalq hüquqi və qanuni çərçivə** .................................................................................................. 6

**Araşdırma kəşfləri**................................................................................... **Error! Bookmark not defined.**

Servislərin və proqramların həyata keçirilməsində inklüzivlik siyasəti ................................................ 8

Azlıq nümayəndələri ilə münasibətdə dil siyasəti ................................................................................ 12

Kənd təsərrüfatı torpaqlarının bölünmə məsələsi ................................................................................ 13

Suvarma sistemləri, infrastruktur və kənd təsərrüfatı texnologiyaları ................................................ 16

Yeni biliyin əhali ilə paylaşması ........................................................................................................... 17

Xüsusi proqramlar və yerli ehtiyaclar................................................................................................... 18

**Xülasə və tövsiyələr** ............................................................................................................................ 19

## Giriş

Son illər ərzində dövlət kənd təsərrüfatının inkişafı üçün mühüm sərmayələr həyata keçirir. Gürcüstan kənd təsərrüfatının inkişafının strateji nəzərləri ötən illərdə də və yeni 2021-2027-ci illər dövründə də, davamlı inkişaf prinsiplərinə istinad edərək, aqrar-ərzaq sektorunda rəqabət qabiliyyətinin artırılmasına, yüksək keyfiyyətli məhsulun istehsalının davamlı artımına, ərzaq təhlükəsizliyinin təmin edilməsinə, ərzağın zərərsizliyi və kəndlərdə yoxsulluğun qarşısının alınmasına dəstək verən mühitin yaradılmasını nəzərdə tutur. 2021-2027-ci illərin kənd təsərrüfatı və kənd inkişafı dövlət strategiyasına əsasən, "2012-ci ildən Gürcüstan hökuməti kənd təsərrüfatı və kəndin inkişafı üçün[1]" mühüm və ölkə üçün misilsiz addımlar atıb. Onun məqsədi də ölkənin davamlı inkişafı və inklüziv iqtisadi artımdır. Dövlət tərəfindən kənd təsərrüfatına ilbəil yüz milyonlarla lari dəyərində sərmaye yatırımına və maddi yardıma baxmayaraq, bir sıra ekspertlər bu sahənin rentabelliyinə şübhə ilə yanaşırlar[2]. Tənqidin əsaslarından biri də, dəstəyin artmasına baxmayaraq, kənd təsərrüfatı sahəsində iqtisadi artım tam iqtisadi artım göstəricisindən hələ on dəfə geridə qalır.[3] Qeyd etmək lazımdır ki, sosial dövlət və bərabərlik prinsiplərindən irəli gələrək və sabit iqtisadi inkişaf üçün, dövlət tərəfindən kənd təsərrüfatının dəstəkləndirilməsi və onun inkişafı üzrə proaktiv iş çox vacibdir, çünki Gürcüstan əhalisinin 41%-i hələ də kənd təsərrüfatında işlə təmin olunub və bəzi regionlar üçün iqtisadiyyatın aparıcı sahəsini təqdim edir[4], ölkənin istehlakçı səbətinin 80%-i isə idxal olunmuş maldır[5].

Kənd təsərrüfatı və yoxsulluğun kəsişməsini müzakirə edəndə, mərkəz və regionlar arasında mövcud dərin iqtisadi bərabərsizliyi mütləq nəzərə almaq lazımdır. Həyat səviyyəsinə əsasən, kənd və şəhər tipli yaşayış məntəqələri arasında mühüm fərq var. Məsələn, 2018-ci ildə kənddə yaşayan ailə təsərrüfatçıları ilə müqayisədə, şəhərdə yaşayan ailə təsərrüfatçılarının orta aylıq gəliri 19.0% ilə yüksək idi. Həmin ildə, mütləq yoxsulluq kənddə 23.1%-i, şəhərdə − 18.0%-i təşkil edirdi.[6] Mərkəz və regionlar arasında bərabərsizlik bazis infrastrukturunun inkişafı səviyyəsində də görünür və bu da regionların inkişafı imkanlarına ağır təsir göstərir. Məsələn, yolların, ictimai nəqliyyatın, elektrik enerjisi və başqa enerji vasitələrinin nasaz sistemləri birbaşa kənd təsərrüfatına cəlb olunan kəndlilərin və fermerlərin gündəlik həyatına təsir edir.

Bununla yanaşı,  kənd təsərrüfatının daxilində mövcud iqtisadi bərabərsizliklər hələ də əsas problem olaraq qalır. Kooperativlərdən başqa, Kənd Təsərrüfatı Nazirliyi kiçik və ailə təsərrüfatı və ya fermerin nə demək olduğunu izah etmir[7]. Kənd təsərrüfatında xüsusən həssas qruplar zəif qadınlar, sağlamlıq imkanları məhdud şəxslər və etnik azlıqlardır. Bir çox hallarda onların torpaqları yoxdur və ya mövcud proqramlardan faydalana bilmirlər. FAO-nun 2019-cu il hesabatına əsasən, sözügedən qrupların ehtiyaclarını daha yaxşı görmək və onların həlli üçün xüsusi addımlar atmaq lazımdır.[8] 2021-ci ildə Human Development İndex-ə (HDI) əsasən, Gürcüstanın, pandemiya böhranına baxmayaraq, çox yüksək göstəricisi var (0.802). Amma

---

[1] Gürcüstan Kənd Təsərrüfatı və Kəndin İnkişafı Strategiyası 2021-2027 https://mepa.gov.ge/Ge/Files/ViewFile/27243
[2] Gürcüstanın kənd təsərrüfatı dövlətin sosial siyasətinin bir hissəsidir https://forbes.ge/saqarthvelos-sophlis-meurn/
[3] Gürcüstanın kənd təsərrüfatı 2012-2019-cu illərin əsas tendensiyaları https://transparency.ge/sites/default/files/sakartvelos_soplis_meurneoba.pdf
[4] burada
[5] Gürcüstanın kənd təsərrüfatı dövlətin sosial siyasətinin bir hissəsidir https://forbes.ge/saqarthvelos-sophlis-meurn/
[6] Gürcüstan Kənd Təsərrüfatı və Kəndin İnkişafı Strategiyası 2021-2027 https://mepa.gov.ge/Ge/Files/ViewFile/27243
[7] https://www.fao.org/3/ca9822en/CA9822EN.pdf
[8] burada

müxtəlif sosial qruplara və regionlara əsasən, bərabərsizliyin hesablanması nəticəsində göstərici 12 ilə azalır və 0.706 bala qədər aşağı düşür [9].

Son illər ərzində, beynəlxalq təşkilatların dəstəyi və Avropa İttifaqı ilə dərin və hərtərəfli azad ticarət məkanı haqqında anlaşma nəticəsində, kənd təsərrüfatının dəstəkləndirilməsi proqramları daha strukturlaşdırılmış, vahid və şəffaf olub[10]. Gürcüstan Ətraf Mühitin Müdafiə və Kənd Təsərrüfatı Nazirliyi nəzdində Kənd İnkişaf Agentliyi yaranıb və kənddə real abadlaşma məqsədilə dövlət cəhdləri ilə bağlı bütün proqram və servisləri müəyyən hissədə birləşdirib[11].

Bu sənədin məqsədi tənqidi suallar qaldırmaqdan və kənd təsərrüfatında nazirliyin və müvafiq qurumların diqqətindən kənarda qalan dövlət proqramlarını və sərmayeləri müşahidə etməkdən ibarətdir. Belə bir məsələlərdən biri kənd təsərrüfatında işlə təmin olan qeyri-dominant etnik qrupların ehtiyaclarıdır.

Sosial Ədalət Mərkəzinin qeyri-dominant etnik qrupların yaşadığı regionlarda fəal işi göstərir ki, etnik azlıq nümayəndəsi olan kəndlilər, bir çox hallarda, kənd təsərrüfatında mövcud proqramlardan və layihələrdən faydalana bilmirlər, onlar tez-tez kəndlərindəki torpaq ehtiyatlarının ədalətsiz və ayrı-seçkilik bölgüsü təcrübəsi haqqında danışırlar. Bu da 90-cı illərin və eləcə də son illərin özəlləşdirməsinin parçalarla və nəzarətsiz prosesinin nəticəsidir. Etnik azlıqların yaşadıqları kəndlərdə suvarma su sistemləri bir çox hallarda işləmir və yerli əhali üçün ağır yük olur. Bu qruplar üçün kənd təsərrüfatının yeni proqramlarına və biliyə əlçatma məhduddur. Bütün bunlara baxmayaraq, azlıqların nümayəndələri öz-özünə təşkil edilmiş, öz əmək və təsərrüfat istehsalının ənənəvi metodları ilə işlərini davam etdirir və ölkə miqyasları ilə bir sıra məhsulların istehsalı göstəricisi ilə də liderlik edirlər. Məsələn, 2018-ci il göstəriciləri ilə Gürcüstanda kartof məhsulunun ən kütləvi istehsalçısı Samsğe-Cavaxeti regionudur, süd məhsulları və heyvandarlıq baxımından ən məhsuldar bölgə Kvemo Kartli idi.[12]

Bütün bunlardan irəli gələrək, etnik qrupların dəstəkləndirilməsi üçün kənd təsərrüfatı qurumlarının necə işlədiyinə, regionlara əsasən dövlət və beynəlxalq sərmayelərin necə bölündüyünə, dövlətin etnik azlıqların cəlb olunduqları sahələrə necə yardım etdiyinə dair suallar verilməlidir. Eləcə də maraqlıdır ki, hansı sosial qruplar dövlətdən dəstək alırlar, kiçik fermerlər və ya böyük iş adamları, kənd təsərrüfatında prioritet istiqamətlər necə formalaşır, bu və ya digər proqramın maliyyələndirilməsi haqqında qərarlar necə qəbul olunur.

Kənd təsərrüfatına artan dəstək və investisiyalar fonunda, sözügedən resursların müxtəlif regiona əsasən birbaşa kəndlilərə və fermerlərə nə qədər ədalətli, inklüziv və bərabər şəkildə çatdığını və müxtəlif qrup üçün bu proqramlarda və layihələrdə iştirakın nə dərəcədə əlçatan olduğunu müşahidə etməliyik.

### Araşdırmanın metodologiyası və məhdudiyyətləri

Sənəddə tədqiqat metodologiyası kimi xassə metodundan istifadə olunub, onun çərçivəsində 21 geniş müsahibə aparılıb. Bunlardan kənd təsərrüfatı mütəxəssisləri ilə 5 müsahibə aparılıb, Marneuli, Bolnisi, Ninotsminda və Axalkalaki konsultasiya mərkəzlərinin nümayəndələri ilə 4 görüş keçirilib. Bir görüş Kənd İnkişaf Agentliyinin nümayəndələri ilə, bir görüş Kənd Təsərrüfatının Elmi-Tədqiqat İnstitutunun nümayəndəsi ilə, 5-5 görüş isə etnik azərbaycanlı və erməni kəndli/fermerlərlə keçirilmişdir.

---

[9] Georgia ranks high on Human Development Index https://www.undp.org/georgia/press-releases/georgia-human-development-index

[10] Ekspertlə geniş müsahibə, Müsahibə N1.

[11] Kənd İnkişaf Agentliyi http://www.rda.gov.ge/ge/static/chvenshesakheb

[12] Gürcüstan Milli Statistika Xidməti https://www.geostat.ge/ka/modules/categories/93/regionuli-statistika

Bununla yanaşı, sənədin müəllifləri stolüstü araşdırma aparıb, Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin, Kənd İnkişaf Agentliyinin, Kənd Təsərrüfatı Elmi Tədqiqat Mərkəzinin, Torpaqların Dayanıqlı İdarə Edilməsi və Torpaqdan İstifadənin Monitorinqi Milli Agentliyinin, Gürcüstan Meliorasiyasının və digər qurumların internet saytları öyrənilib. Eləcə də, Gürcüstanın 2021-2027-ci illər üçün kənd təsərrüfatı və kəndin inkişafı strategiyası öyrənilib. Kənd təsərrüfatı sahəsində mövcud proqram və layihələr haqqında ictimai məlumat da tələb olunub.

Sənəd əsasən kənd təsərrüfatında azlıqların dəstəklənməsi baxımından dövlət siyasətini qiymətləndirir və kənd təsərrüfatına dəstəyin məzmun hissəsinə daxil olmur. Eyni zamanda qeyd etmək lazımdır ki, bu, sahəni etnik azlıqların problemləri prizmasından qiymətləndirmək və siyasi gündəmə gətirmək üçün ilk cəhddir.

## Beynəlxalq hüquqi və qanuni çərçivə

Kənd təsərrüfatı baxımından azlıqların ehtiyaclarını və problemlərini müzakirə etməzdən öncə, torpaq və su hüquqları ilə bağlı mövcud olan beynəlxalq hüquqi mexanizmləri qeyd etmək lazımdır.

Qeyd etmək lazımdır ki, bir çox hallarda etnik azlıq nümayəndələrinin özlərini dolandırmaq üçün yeganə vasitələri əkinçilik və heyvandarlıq olur, bundan irəli gələrək, azlıq nümayəndələrinin də qanunvericilikdə hüquqi subyekt kimi nəzərdə tutulacağı hüquqi tənzimləməni tapmaq lazımdır. Bu baxımdan, Birləşmiş Millətlər Təşkilatının Kəndlilər və Kənd Yerlərində Çalışan İnsanlar haqqında Bəyannaməsi münasibdir. Bəyannamənin subyektləri fərdi qaydada və ya icmada birləşməklə, kiçik kənd təsərrüfatı istehsalı ilə məşğul olan və konkret torpağa xüsusi bağlılıq əlaqəsini duyan şəxslərdir.[13]

Fermerlərin gəlirlərinin əsas və bir çox hallarda yeganə mənbəyini əkinçilik təqdim etdiyindən, bəyannamə, öz məqsədlərindən irəli gələrək, torpaq üzərində hüquqi məsələləri xüsusilə ciddiləşdirir, özəlliklə də 17-ci maddənin 1-ci hissəsinə əsasən: "*kəndlilər və kənddə yaşayan digər xalqların həm fərdi, eləcə də kollektiv şəkildə torpağa əlçatma hüquqları var ki, adekvat həyat standartına uyğun yaşaya bilsinlər*".[14] "Adekvat həyat standartına uyğun yaşamaq" termini məzmunca, özlüyündə düzgün bölünmüş torpaqlardan alınan resurslarla faydalanmaq imkanını bildirdiyi və bu da şərtsiz olaraq kənddə yaşayan insanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə əlaqədar olduğu birmənalıdır.

Öz növbəsində, dövlət, fermerlərin torpağa əlçatma hüququna malik olması üçün inklüziv, fərdlərə uyğunlaşdırılmış, hüquqi tənzimləmə yaratmalıdır ki, bununla da bir tərəfdən, kəndlilərin torpağı qanuniləşdirmələri asan olacaq v torpaqların hüquqi tanınmasını təmin edəcək, digər tərəfdən isə fermerlərin torpaqdan istifadəsinə qanunsuz müdaxiləni qadağan edəcək[15]. Bəyannamədə bu məqsədlərə nail olmağın səmərəli yollarından biri kimi ümumi, kollektiv faydalanmada və istifadədə olan, idarəetmə və bölgü sistemləri də dövlət tərəfindən qanunla müəyyən edilən torpaqların mövcudluğu qeyd olunur.

---

[13] United Nations Declaration on the Rights of Peasants and Other People Working in Rural Areas, Article 1 (1), əlçatandır:https://www.geneva-academy.ch/joomlatools-files/docman
ტტტტfiles/UN%20Declaration%20on%20the%20rights%20of%20peasants.pdf

[14] Burada. 17-ci maddənin 1-ci hissəsi.

[15] Burada. 17-ci maddənin 3-cü hissəsi.

Əlavə olaraq, kəndlilərin və kənddə çalışan digər şəxslərin onların qanuni əmlakı olmasa da, daim yaşayış yerləri olan və məşğulluq və yaşayış şərtləri ilə faydalanmaq üçün istifad etdikləri torpaqların müsadirə edilməsindən və özgəninkiləşdirilməsindən qorunmağa qanuni hüquqları olduğuna diqqət yetirmək lazımdır.[16]

Lazım gəldiyi halda, kəndlilərin hüquqlarının qorunmasının əlavə hüquqi mexanizmlərindən biri kimi, onlara xüsusiləşdirilmiş imtiyazın verilmə mexanizmi nəzərdə tutulmuşdur. Bu mexanizmlə təyin olunur ki: "*dövlət torpaqlarının özgəninkiləşdirildiyi halda, torpağa sahib olmayan kəndlilərə üstünlük verilməlidir*".[17] Sözügedən müddəa öz məzmununa görə, kəndlilərin mühüm hüquqi müdafiə mexanizmini təqdim etməklə yanaşı, torpağın və mülkiyyətin sosial mahiyyətinə də diqqəti cəlb edir.

Torpaqların ədalətli birləşdirilməsi üçün hüquqi ön şərtlərdən biri, kiçik torpaqlı yaşayış məntəqələrində torpaqların ayrı-seçkilik xaricində bölüşdürülməsidir ki, bunun üçün də bəyannaməyə əsasən, cavabdeh şəxs dövlət özüdür, çünki bəyannamənin 17-ci maddəsinə görə: "*Dövlətlər torpaq hüquqları ilə bağlı ayrı-seçkiliyi aradan qaldırmaq üçün bütün lazımi tədbirləri görməlidirlər*".[18]

Digər tərəfdən, etnik azlıqları təmsil edən kəndlilərin dövlət hərracları və xidmətləri barədə məlumatlı olmaması torpaq hüquqları ilə bağlı ayrı-seçkiliklə qeyd-şərtsiz əlaqələndirilir. Qeyri-dominant etnik qrupların məskunlaşdığı bölgələrdə fermerlər çox vaxt torpaqların qeyri-bərabər bölüşdürülməsindən narahat olurlar ki, buna səbəb də əsasən torpaqda çalışan etnik azlıqların nümayəndələrinin dövlət tərəfindən planlaşdırılan proqramlar və xidmətlər barədə məlumatlı olmamasıdır. Bu da öz növbəsində beynəlxalq hüquqda nəzərdə tutulmuş qaydalara ziddir, çünki dövlətin qanunla müəyyən edilmiş öhdəliyi, kəndlilərin müvafiq məsələlərlə bağlı vaxtında, onların mədəniyyəti üçün başa düşülən dildə, formada və metodlarla məlumatlandırılmasını təmin etməkdir ki, bu da onların gələcəkdə yaşayış şəraitinə təsir edə biləcək əsas məsələlərin həllində səmərəli iştiraklarına və qoşulmalarına imkan yaratsın.[19] Buna uyğun olaraq, torpaqların bölgüsü və bölüşdürülməsi prosesində etnik azlıq nümayəndələri olan kəndlilərin dil maneəsinə görə, qarşılaşdıqları çətinliklərlə bağlı dövlətin laqeydliyi aydın görünür. Qeyd etmək lazımdır ki, Gürcüstan Milli Azlıqların Müdafiəsi Haqqında Çərçivə-Konvensiyanı ratifikasiya etmiş və müvafiq olaraq, etnik azlıqların yaşadıqları yerlərdə, real ehtiyac olduğu halda, inzibati orqanlar azlıqların dillərindən istifadə etməlidirlər[20] və məntiqcə, analoji olaraq kəndlilərə, onlar tərəfindən istifadədə olan torpaqların hərrac qaydası ilə özgəninkiləşdirmə halları da şamil edilməlidir. Belə ki, torpağa elan edilmiş hərraclar haqqında kəndlilərin məlumatsızlığı, dil maneəsi və dövlətin qeyri-inklüziv siyasəti, fermerlərin yaşayış şərtləri və hüquqi vəziyyətlərinin pisləşməsi ilə birmənalı əlaqədardır.

Torpaqların ədalətli konsolidasiyası müzakirə edilərkən, məsələyə torpağın sosial mənası və təyinatının daha geniş linzasından baxmaq lazımdır. Torpağın, balıqçılığın və meşələrin mülkiyyət məsuliyyətinə dair beynəlxalq təlimatlarda da belə qeyd olunur ki, geniş sosial təyinat və kontekst nəzərə alınmaqla dövlət mülkiyyətində olan torpaq və su ehtiyatlarından istifadə edilməlidir, bunun da ən səmərəli yollarından biri dövlət tərəfindən kollektiv istifadə və idarəetmə sistemlərinin yaradılmasıdır.[21] Bununla belə, dövlət ictimai torpaqları özgəninkiləşdirməzdən əvvəl yerli icmaların və ayrı-ayrı şəxslərin məişətlərində torpağın

16 buradaca: 17-ci maddənin 4-cü hissəsi
17 buradaca: 17-ci maddənin 6-cı hissəsi
18 buradaca: 17-ci maddənin 2-ci hissəsi
19 buradaca: 11-ci maddənin მე-2 ნაწილი
20 Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyası, Maddə 11, 2-ci hissə, əlçatandır: https://www.matsne.gov.ge/ka/document/view/1244853?publication=0
21 Food and Agriculture Organization of the United Nations, Voluntary Guidelines on the responsible Governance of Tenure on Land, Fisheries and Forests in the Context on National Food Security, Article 8.1, ხელმისაწვდომია: https://www.fao.org/3/i2801e/i2801e.pdf

təyinatını və rolunu nəzərə almalıdır. Müvafiq olaraq, dövlət qeyri-dövlət subyektləri ilə birlikdə bu və ya digər torpağın, təbii sərvətlərin bu və ya digər icma üçün əhəmiyyətini dərk etməlidir. [22]

Qeyd etmək lazımdır ki, ədalətli bölgü ilə yanaşı, əkinçilik prosesində ən mühüm ön şərtlərdən biri kəndlilər üçün suvarma suyuna əlçatmadır və bu da etnik azlıq nümayəndəsi olan fermerlər üçün kəskin problem olaraq qalır. Belə ki, suvarma suyunun rolunun aqronomiya və əkinçilik üçün həyat əhəmiyyəti kəsb etdiyinə görə, dövlətə suvarma sisteminin əlçatma hissəsində qanun tərəfindən hansı öhdəliyin verildiyi ayrıca izah edilməlidir. Kəndlilər haqqında bəyannaməyə əsasən: "kəndlilər və kənddə işləyən xalqın içməli suya və suvarma suyuna əlləri çatmalıdır, çünki ləyaqətli həyat üçün su lazımi ön şərtlərdən biridir".[23]

Bəyannamə ilə suyun paylanması prosesində hər cür ayrı-seçkilik qadağan edilir. Paradoksal olaraq, suya ən çox ehtiyacı olanlar, o cümlədən köçəri maldarlar və tarlalarda çalışan kəndlilər, ən həssas qruplar kimi, suyun paylanması ilə bağlı ayrı-seçkiliklə üzləşirlər. Buna görə də, Bəyannamədə bilərəkdən hədəf qrupu ayrıca qeyd edilirdi ki, "*Dövlətlər xüsusilə həssas və marginallaşdırılmış qrupların, o cümlədən köçəri maldarların, plantasiyada işləyən kəndlilərinin və miqrant işçilərin həm suvarma, həm də içməli suya əlçatmasını qeyd-şərtsiz təmin etməyə borcludur.*[24]" Bununla belə müəyyən edilib ki, ölkə suyun qeyri-bərabər paylanması problemi ilə üzləşdiyi halda, su ehtiyatlarının kommersiyalaşdırılmasına icazə verilmir.[25]

Problemin uyğunluğunu və torpaq və təbii sərvətlərin ədalətli birləşdirilməsinin vacibliyini daha yaxşı görmək üçün qeyd etmək lazımdır ki, Birləşmiş Millətlər Təşkilatının 2030-cu il gündəliyində əsas məqsədlərdən biri kimi, təbii ehtiyatlara, torpaq və suya bərabər əlçatma müəyyən edilib[26]. Aqronomluqla məşğul olan etnik azlıq fermerlərinin məhsuldarlığının iki dəfə artırılması məqsədinə xüsusi diqqət yetirilir. Bu məqsədə nail olmağın effektiv vasitəsi kimi, yerli icma torpaqlarına bərabər əlçatma, məlumatlılıq və əlavə maliyyə benefitləri adlandırılmışdı.[27]

Beləliklə, beynəlxalq hüquqi mexanizmlər və qurumlar torpağın və digər təbii sərvətlərin ədalətli birləşdirilməsinin vacibliyinə getdikcə daha çox diqqət yetirdikdə, dövlət etnik azlıqların nümayəndəsi olan kəndlilərin üzləşdiyi problem və maneələri həll etmək üçün daha çox işlər görməlidir.

## Tədqiqat nəticələri

### Servislərin və proqramların həyata keçirilməsində inklüziv siyasət

Həm masaüstü araşdırmalar, həm də Kənd İnkişaf Agentliyindən tələb olunan ictimai məlumatlar, eləcə də fermerlər/kəndlilərlə aparılan müsahibələr göstərir ki, etnik azlıqlar kənd təsərrüfatı üzrə əsas proqram və layihələrdən faydalana bilmirlər. Sosial Tədqiqatlar və Analiz İnstitutunun 2022-ci ildə hazırladığı etnik azlıqların sosial eksklüziyasına (təcridinə) dair araşdırmasına əsasən, etnik azlıqlar və ya onların ailə üzvləri əksər hallarda dövlətin təklif etdiyi proqramlardan/layihələrdən faydalanmayıb.

Konkret olaraq, respondentlər növbəti proqramlarda/layihələrdə iştirak etməyiblər: "Gürcüstanda istehsal et" dövlət proqramı (85,2%), "Gələcəyi tətbiq et" proqramı (89,6%), Aqrar sığorta proqramı (90%), Güzəştli aqrokredit (80,8%), südçülük sahəsinin modernləşdirilməsi və Bazara çıxış proqramı

---

[22] buradaca: Article 9.1 və 9.2
[23] United Nations Declaration on the Rights of Peasants and Other People Working in Rural Areas, Article 21.1
[24] buradaca: 21-ci maddənin 3-cü hissəsi
[25] buradaca:
[26] UNITED NATIONS, THE 2030 AGENDA FOR SUSTAINABLE DEVELOPMENT, Goal 1.4, əlçatandır: https://sustainabledevelopment.un.org/content/documents/21252030%20Agenda%20for%20Sustainable%20Development%20web.pdf
[27] buradaca: Goal 2.3

(91,1%), Fermaların/fermerlərin qeydiyyat layihəsi (89%). Respondentlər iki layihə: güzəştli aqrokredit (8,5%) və "Gürcüstanda istehsal et" dövlət proqramı (5,2%) istiqamətində cüzi fəallıq təsbit etdirirlər[28].

Kənd İnkişaf Agentliyindən alınan ictimai məlumatlar etnik azlıqların nümayəndələrinin dövlət proqramları və layihələrində iştirak göstəricilərini birbaşa hesablamağa imkan vermir. Amma bu məlumatlara əsaslanaraq, bu proqramların və layihələrin etnik azlıqların məskunlaşdığı regionlarda necə yayıldığı barədə nəticə çıxara bilərik. Qeyd etmək lazımdır ki, bir sıra proqram və layihələr müxtəlif regionlar arasında, o cümlədən azlıqların yaşadıqları bölgələrdə bərabər şəkildə xərclənir.

Məsələn, bütün Gürcüstan üzrə Aqrosığorta proqramının benefisiarlarının təxminən 10 faizi (35 586 benefisiar) Cavaxeti və Kvemo Kartlidəndir (3 302 benefisiar). Eləcə də güzəştli aqrokredit proqramlarının benefisiarlarının ümumi sayının 15 faizindən çoxu (18 194) Cavaxeti və Kvemo Kartlidəndir. Amma daha önəmli və daha iri layihələrdə azlıqların yaşadığı regionların dəstəyi demək olar ki, həmişə 10 faizdən aşağı olur. Məsələn, "Emal və Saxlama Müəssisələrinin Birgə Maliyyələşdirmə Proqramı"-nın (128 benefisiar) ümumi sayından cəmi 13 layihə azlıqların yaşadığı bölgələrdə həyata keçirilir, amma Axalkalaki, Ninotsminda, Marneuli və Dmanisi munisipalitetlərində heç biri həyata keçirilməyib. Maraqlıdır ki, 13 layihədən 9 müəssisə etnik azlıqların payının 50%-dən az olduğu Qardabani munisipalitetində, 2 müəssisə isə azlıqların ümumi sayının 35%-i olan Axaltsixe munisipalitetində açılıb. Eləcə də "Aqrar İstehsalın Dəstəkləndirilməsi üzrə Dövlət Proqramı" və "Kənd Təsərrüfatının mexanikləşdirilməsinin müştərək maliyyələşdirilməsi üzrə Dövlət Proqramı"-nın icrasında azlıqların məskunlaşdığı bölgələrə dəstək 10 faizdən çox aşağıdır.

Əhali ilə aparılan müsahibələr zamanı demək olar ki, bütün iştirakçılar dövlət tərəfindən nəzərdə tutulan proqramlar və xidmətlər barədə məlumatlarının olmadığını bildiriblər. Bir çox hallarda, əhali konsultasiya mərkəzlərinin yerini bilmir və onların məşğuliyyətini tanımır. Qeyd etmək lazımdır ki, pulsuz yanacaq, kiçik torpaqlı fermerlərə maliyyə dəstəyi kimi universal proqramlar qeyri-dominant etnik qruplardan olan kəndlilər üçün əlçatandır. Halbuki əhalinin sözlərinə görə, "Gələcəyi tətbiq et", Kooperativlərin Dəstəklənməsi, Emal və Saxlama Müəssisələrinin birgə maliyyələşdirilməsi kimi proqramlar və digər layihələr haqqında məlumat onlara məlum deyil. Burada onu da demək lazımdır ki, aqrosığorta və ucuz aqrokredit proqramları əhaliyə məlum olsa da, bir çox hallarda onlar bu servislərin istifadəsindən çəkinirlər.

> "Hər hansı məlumata ehtiyacım olsa, hara müraciət edəcəyimi bilmirəm. Kimə müraciət edəcəyimi bilmirəm, dövlət bizə məlumat vermir" (Bolnisa fermeri/kəndlisi ilə ətraflı müsahibə, 49 yaşında);
>
> "Bizə kömək edirlər, amma proqramlar çox azdır, dizel verdilər, kart verdilər, amma elə bil ki, yıxılmayaq, bu işdən əl çəkməyək deyə verirlər. Halbuki Bolnisi çox imkanlı munisipalitetdir" (67 yaşlı Bolnisidən olan fermer/kəndli ilə ətraflı müsahibə);
>
> "Kənd təsərrüfatı sığortası proqramı haqqında eşitdim, amma istifadə etmirəm, çünki sığorta etmək üçün kifayət qədər pulum və ya məhsulum yoxdur" (Bolnisi fermeri/kəndlisi ilə ətraflı müsahibə, 49 yaş).

Kənd təsərrüfatı ekspertlərinin fikrincə, dövlət öz siyasət və proqramlarını planlaşdırarkən müxtəliflik və inklüzivlik linzalarından istifadə etmir. Ekspertlərin bir hissəsi bunun düzgün yanaşma olmadığını və kənd təsərrüfatında əsas çıxış yolunun digər amillər deyil, məhz kənd təsərrüfatı məsələləri olduğunu hesab edir.

[28] Sosial Tədqiqatlar və Təhlil İnstitutu, Etnik Azlıqların Sosial Təcridinə dair Araşdırmalar, 2022, Tbilisi

Bununla belə, bir sıra ekspertlərin fikrincə, siyasətləri planlaşdırarkən azlıqların xüsusi statusuna diqqət yetirmək və onların ehtiyaclarını nəzərə almaq bu qrupların məhsuldarlığının artırılmasında daha effektiv ola bilər.

Bununla belə, bir sıra ekspertlərin fikrincə, siyasətləri planlaşdırarkən azlıqların xüsusi statusuna diqqət yetirmək və onların ehtiyaclarını nəzərə almaq bu qrupların məhsuldarlığının artırılmasında daha effektiv ola bilər.

“Müxtəliflik haqqında düşünüldüyü görünmür, nazirlik üçün ən əsası kimə yox, sahəyə köməyin göstərilməsidir. Hansı sahə üzrə hansı rayona gedəcəklərini düşünməyiblər. Başqa şeyə deyil, konkret mədəniyyətə daha çox kömək olunur” (ekspertlə geniş müsahibə, Müsahibə N2);

“13-14 ildir ki, bu sahədə çalışıram. Təkcə azlıqlara yönəlmiş proqramların olması çətindir. Amma proqram regional və ya məhsul yönümlüdürsə, o zaman kartof məsələsidirsə, etnik ermənilər kənarda qoya bilməzsən və ya Kvemo Kartlidə pomidorla işləyirsənsə və azlıqları cəlb etmirsənsə, bu, artıq qanun pozuntusu deməkdir” (ekspertlə geniş müsahibə, Müsahibə N3).

Bu və ya digər proqramın dəstəklənməsi və ya maliyyələşdirilməsinə dair qərarların necə qəbul edilməsi ilə bağlı bəzi ekspertlərin tənqidi fikirləri var. Onların fikrincə, üç əsas amil var ki, bunların əsasında da bu və ya digər sahə maliyyələşir. Əsas amil üzüm, sitrus və son illərdə gürcü çayı kimi ənənəvi və tarixi bitkilərdir.

İkincisi, bir çox hallarda dövlət dəstəyi proqramlarının əsasını ixracın artırılması istəyi təşkil edir, halbuki idxalın azaldılmasına diqqət nisbətən zəifdir. Üçüncü amil ictimai rəy və belə adlanan PR-dir. Bununla yanaşı demək olar ki, bütün ekspertlər bildirirlər ki, kənd təsərrüfatı sistemində ciddi problem olaraq proqramların və layihələrin dəstəklənməsinə əsaslanan real araşdırmalar yoxdur.

“Proqramlar və servislər ehtiyaclara uyğun yaradılır. İqlim, torpaq, ətraf mühit və Gürcüstanda nəyin uğurlu ola biləcəyini nəzərə alaraq. Rəsmi araşdırmalar yoxdur  və ya mənim rastıma gəlməyib, amma bütün bunlar sahədən planlaşdırılmalıdır. Eyni zamanda, əsas aksent ixrac məhsullarına edilir” (ekspertlə ətraflı müsahibə, Müsahibə N2);

“Məsələn, şərab tarixən maliyyələşib, sitrus və çay Sovet İttifaqında olub. Buna görə də onlar maliyyələşdirməyə davam edirlər. Bütün bunlar ənənəvi gürcü məhsulu hesab olunur və buna görə də biz bunu dəstəkləyirik. Eləcə də bütün bunlarda ixrac potensialı nəzərə alınır (ekspertlə dərin müsahibə, müsahibə N1);

Perspektivsiz  proqramlar da var, amma reklam nöqteyi-nəzərindən həyata keçirilir, məsələn, gürcü çayı proqramı inkişafsız proqramdır, amma yenə də kömək edir (ekspertlə dərin müsahibə, Müsahibə N5).

Bununla belə, ekspertlərin fikrincə, azlıqların proqram və xidmətlərə qoşulması həm də etimad və əlaqələrin qurulması üzərində işi tələb edir, çünki qeyri-dominant qruplar çox vaxt belə dəstək proqramlarının onlar üçün əlçatan ola biləcəyinə inanmırlar.

“Rəqabətə inamın aşağı olması özünü göstərir. İnsan  onsuz da maliyyələşdirilməyəcəyini düşünür. Bunun təsiri də ola bilər. Təcrübəmdən irəli gələrək,  o zaman mühüm təsir göstərirdi” (ekspertlə dərin müsahibə, müsahibə N5).

Kənd İnkişaf Agentliyinin nümayəndələrinin sözlərinə görə, bütün xidmət və proqramlar yerli ehtiyaclar nəzərə alınmaqla qurumlar tərəfindən planlaşdırılıb həyata keçirilir. Bununla belə, azlıqların dövlət dilini öyrənmələrinə tələbat olduğunu bildirirlər ki, onlar kənd təsərrüfatı proqramlarından yararlana bilsinlər.

"Bizim etnik azlıqlar üçün ayrıca komponentimiz yoxdur, lakin hər şey açıqdır və hamı üçün əlçatandır. Biz bunu gənclər və qadınlar üçün etmişik, lakin etnik azlıqlar üçün yox" (Kənd İnkişaf Agentliyinin nümayəndələri ilə müsahibə).

> Qeyd edək ki, agentliyin nümayəndələri mütəmadi olaraq azlıqların məskunlaşdığı bölgələrdə agentliyin fəaliyyəti ilə bağlı məlumatlandırma kampaniyaları apardığını bildirirlər. Bununla belə, agentliyin kifayət qədər resursları olmadığından yerli hakimiyyətin dəstəyinə ehtiyac var.
>
> "İnformasiyanın yayılması prosesində özünüidarəetmənin çoxlu resursları var və onlar bizə kömək etməlidirlər. Resursumuz yoxdur, çünki sayımız çox deyil, merin nümayəndələri də bizə kömək etməlidir" (Kənd İnkişaf Agentliyinin nümayəndələri ilə müsahibə).
>
> Bununla belə, agentlik əməkdaşlarının fikrincə, əhali ilə görüşlər gürcü dilini öyrənmək üçün əlavə motivasiyadır və burada gürcü dilini bilsəydilər, faydalanacaqları mövcud proqramlar haqqında əhali ilə bölüşərdilər.
>
> "Bu görüşlər dili öyrənmək üçün keçirilir. Onlar bilirlər ki, xidmətlər mövcuddur və gürcü dilini öyrənsələr, bu xidmətləri əldə edəcəklər" (Kənd İnkişaf Agentliyinin nümayəndələri ilə müsahibə).

Munisipalitetlərdəki konsultasiya mərkəzlərinin əməkdaşlarının fikrincə, kənddə yaşayan əhali ilə görüşlər və onlara servisləri tanıtmaq fəal şəkildə aparılır. Amma onların fikrincə, bir çox hallarda azlıq nümayəndələri olan kəndlilər/fermerlər yeniliklərə qarşı çıxır və ənənəvi metodlarla və yanaşmalarla işlərini davam etdirirlər.

> „Onların ata-babaları kartof əkirdisə, o da kartof əkir, heç nəyi dəyişmir. Bizə qulaq asmırlar (Marneuli Konsultasiya Mərkəzinin əməkdaşı).

Konsultasiya Mərkəzlərinin əməkdaşları bildirirlər ki, onların əsas fəaliyyəti statistika aparmaq və mərkəzə çatdırmaqdır, amma onlar etnik əlamətlərlə statistika aparmırlar. Azlıq nümayəndəsi kəndlilərə/fermerlərə qarşı mərkəzin əməkdaşları arasında stereotip yanaşmalar da var. "Ən yaxşı torpaqlar azlıqlardadır", "onlar daha imkanlıdırlar" və s. kimi fikirlər çoxdur.

Etnik azlıq nümayəndəsi olan qadınların ehtiyacları baxımından vəziyyət daha ağırdır. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) "Gender, Kənd Təsərrüfatı və Kənd İnkişafı" adlı hesabatında qeyd olunur ki, kiçik ailə təsərrüfatı ilə məşğul olan özünü işlə təmin edən qadınların 59%-nin əməyi ödənilməmiş qalır[29]. Kvemo Kartlidə kənd təsərrüfatında çalışan etnik azlıqları təqdim edən qadınların payı kişilərlə müqayisədə ən yüksəkdir[30]. Bununla belə, həm bütün Gürcüstan ərazisində, həm də etnik azlıqların yaşadığı regionlarda qadınların torpaq sahibliyi göstəricisi kişilərdən xeyli aşağıdır[31]. Qadınlar üçün müvəqqəti yoxsulluğun səviyyəsi yüksəkdir. Regionlarda, xüsusilə də etnik azlıqların sıx məskunlaşdığı kəndlərdə infrastruktur geriliyi səbəbindən qadınlar ev işlərinə daha çox vaxt sərf etməli olurlar. Ev əməyinin yükünün qadınların üzərinə düşdüyü şəraitdə (Birləşmiş Millətlər Təşkilatının Qadın

---

[29] Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO). Gender, kənd təsərrüfatı və kənd inkişafı. Ölkə Gender Qiymətləndirilməsi Seriyası. Roma. 2018 il

[30] "Gələcəyi tətbiq et" dövlət proqramı gender təsirinin qiymətləndirilməsi https://georgia.unwomen.org/sites/default/files/2022-11/Danerge%20Momavali%20Geo.pdf

[31] Smallholders and family farms in Georgia https://www.fao.org/3/ca9822en/CA9822EN.pdf

Layihəsi tərəfindən hazırlanan yeni araşdırmaya görə, qadınlar həftədə təqribən 38,4 saat, kişilər isə 11,5 saat ödənişsiz işə sərf edirlər. Bundan başqa, qadınların 98,3%-i və kişilərin 70,2%-i ödənişsiz işdə iştirak edir) [32], qadınların ev təsərrüfatında iş yükünün çox olması onların həyatını ikiqat çətinləşdirir.

Ölkədə bəyan edilən gender cəhətdən həssas siyasətlərə baxmayaraq, dövlət siyasətində etnik azlıqlardan olan qadınların ehtiyaclarına xüsusi diqqət açıq şəkildə görünmür. Marneuli və Laqodexi munisipalitetlərində həyata keçirilən və parnik təsərrüfatının qurulmasında qadınlara dəstək olmaq məqsədi daşıyan Kənd İnkişaf Agentliyinin UN Women ilə birgə başlatdığı pilot proqramlardan biri müsbət qiymətləndirilməlidir[33]. UN women-in dəstəyi ilə 2020-ci ildə tədqiqatçılar qrupu Kənd İnkişaf Agentliyinin "Gələcəyi tətbiq et" proqramının gender təsirini qiymətləndirmiş və burada (1) gender rolları və stereotiplər; (2) resurslara qeyri-bərabər əlçatma, (3) treninqlərə və biliyə əlçatma, (4) göstəricilərlə bağlı məhdudiyyətlər və gender baxımından mövcud məlumatların analizinin olmaması görünür[34]. Bu problemlər etnik azlıq nümayəndələri qadınlar üçün ümumidir və etnik azlıq nümayəndəsi olan qadınları bu cür proqramlarda iştirak etməkdən daha da çəkindirən dövlət dili siyasətidir.

## Azlıq nümayəndələrinə qarşı dil siyasəti

Sosial Araşdırma və Analiz İnstitutunun 2022-ci il araşdırması göstərir ki, etnik azlıqların qarşısında dil biliyi yenə də kəskin şəkildə durur.

> 63% gürcü hərflərini pis və ya çox zəif tanıyır və sözləri oxuya bilmir. Onların qiymətləndirmələrinə görə, Gürcüstanda yaşayan etnik azlıqların 60%-i gürcü dilində danışan şəxslə çox pis və ya zəif ünsiyyət qura bilir, daha böyük bir hissəsi (84%) isə gürcü ədəbiyyatını çox pis oxuyur və ya mətnin mənasını pis başa düşür. Respondentlərin yaşının gürcü dili üzrə bilik keyfiyyətinə təsir etdiyi də məlum olub: yaş artdıqca, gürcü dilini yaxşı bilənlərin sayı da azalır.

Əhalinin və ekspertlərin bir hissəsi qeyri-dominant etnik qrupları təqdim edən kəndlilər/fermerlər üçün məlumat çatışmazlığının əsas səbəbini azlıqların anlaya biləcəyi dildə məlumatın olmamasını adlandırırlar. Demək olar ki, sorğuda iştirak edən fermerlər/kəndlilər dil bilməməyin onlar üçün təkcə kənd təsərrüfatı proqramlarından istifadə etməkdə deyil, həm də digər qurumlarla ünsiyyət prosesində mühüm maneə olduğunu bildirirlər. Onlar Konsultasiya mərkəzlərinin işçiləri ilə ünsiyyətə girə bilmirlər, Kənd İnkişaf Agentliyinin saytından istifadə edə bilmir və bir çox hallarda my.mepa.gov.ge portalında qeydiyyatdan keçə bilmirlər. Bu, fermerlərin/kəndlilərin dövlət dəstəyi proqramlarında iştirak etmək və qeydiyyat əsasında imtiyazlar əldə etmək imkanı olan internet səhifədir. Burada qeyd etmək lazımdır ki, azlıq nümayəndələri fermerləri sözügedən portalda qeydiyyatdan keçə bilməsələr də, əksər hallarda bank işçiləri, dövlət qulluqçuları və digər şəxslər fermerləri bu portalda qeydiyyatdan keçirirlər.

> Buradaca kənd təsərrüfatı ilə məşğul olan insanların yaş xüsusiyyətləri də nəzərə alınmalıdır. Ailə təsərrüfatlarının fermerin yaşına görə bölgüsü göstərir ki, yaşı 35-ə qədər olan fermerlər (38090 nəfər) ümumi sayın (639963 nəfər) cəmi 6 faizini təşkil edir. Əsas aktivlik 35-64 yaş qrupunda müşahidə olunur

[32] BMT-nin Qadınlar Təşkilatı, qulluq zamanıdır: Qadınların Ödənişsiz qulluq əməyi və Gürcüstanda bərabərsizlik böhranı, 2022. Əlçatandır: https://georgia.unwomen.org/sites/default/files/2022-12/GTUS%20thematic%20brief%20GEO%20for%20web%20%283%29.pdf

[33] Qadınlar üçün pilot proqramı https://rda.gov.ge/programs/women-pilot-program/27cb55d4-2788-4db5-8bde-92c03b842aef

[34] Dövlət proqramı "gələcəyi tətbiq et" gender təsirinin qiymətləndirilməsi https://georgia.unwomen.org/sites/default/files/2022-11/Danerge%20Momavali%20Geo.pdf

ki, bu da ümumi sayın (377 588 nəfər) 59 faizini təşkil edir. 65 yaşdan yuxarı fermerlərin payı 35 faizdir (224285 nəfər).

Bununla yanaşı, dil siyasəti müxtəlif regionda fərqli təcrübələrlə davam edir. Kvemo Kartlidən fərqli olaraq, Cavaxetidə qeyri-dominant etnik azlıqlara məlumat şifahi çatdırılır, o cümlədən erməni dilində də. Amma yazılı kommunikasiya yalnız gürcü dilindədir.

> „Şifahi kommunikasiya zamanı tərcümə probleminin olduğunu deməzdim, onlar mənə aydın dildə danışırlar. Yerli Agentliyin əməkdaşları ermənilərdir və ünsiyyətdə problem yaranmır. Problem ondadır ki, ədəbiyyat və qrant müsabiqəsi təkcə gürcü dilində əlçatandır". (Ninotsmindadan olan kəndli ilə müsahibə, 62 yaşında)

Kənd təsərrüfatı ekspertlərinin bir hissəsinin fikrincə, mövcud servislər haqqında məlumat azlıqların dillərində də çatdırılmalıdır və bu da azlıqlar tərəfindən sözügedən proqramlarla istifadəni artırardı. Ekspertlər bildirirlər ki, bir çox hallarda proqramlar və xidmətlər haqqında məlumatın tərcümə zərurətindən danışılır.

> "Nazirliyə tərcümə edilmiş kitabçaların lazım olduğun bilmirəm, amma bunun nə qədər sistemli xarakter aldığını da söyləyə bilmərəm". (Ekspertlə ətraflı müsahibə, Müsahibə №3)

Bununla belə, Kənd İnkişaf Agentliyinin əməkdaşlarının fikrincə, azlıqların dilində xidmətlərin göstərilməsi bu qrupların gürcü dilini öyrənmək istəyini azaldacaq ki, bu da onların fikrincə problemlidir.

"Dil baryeri ciddi problemdir, əgər dövlət bütün bunları buklet və flayerlərlə tərcümə etsə, o zaman əhali gürcü dilini daha öyrənməyəcək" (Kənd İnkişaf Agentliyinin nümayəndələri ilə müsahibə)

Konsultasiya mərkəzlərinin əməkdaşları Kənd İnkişaf Agentliyinin əməkdaşlarının mövqeyini bölüşürlər. Bundan əlavə, onlar bildirirlər ki, azlıq icmasından olan fermerlər/kəndlilərlə görüşən zaman onlar tez-tez bələdiyyə nümayəndələrindən tərcüməçi kimi istifadə edirlər, bələdiyyə nümayəndəsi də dövlət dilini bilmədiyi halda, rus dilindən istifadə etməyə məcbur olur.

Mərkəzi qurumlardan fərqli olaraq, Konsultasiya mərkəzlərinin nümayəndələri məlumat kitabçalarının bir hissəsini azlıqların dillərinə tərcümə etdiklərini, lakin tərcümə edilmiş materiallarda yalnız hazırlanan aqrosığorta və aqrokredit proqramlarına toxunduqlarını bildirirlər ki, bu da müvafiq banklar və sığorta təşkilatları tərəfindən konsultasiya mərkəzlərinə və əhaliyə çatdırılır.

Qeyd edək ki, gənclər kənd təsərrüfatında məşğulluğu perspektivsiz iş kimi nəzərdən keçirirlər. Bolnisili gənclərdən birinin sözlərinə görə, kənd təsərrüfatında məşğulluq məhsuldar deyil və çox vaxt yatırılan əməyin qarşılığını almaq mümkün olmur. Buna görə də gənclərin çox hissəsi kənd təsərrüfatı ilə məşğul deyil. Hər iki bölgədə gənclər tez-tez mövsümi iş üçün emiqrasiya edirlər və Tbilisinin ali təhsil müəssisələrində təhsilini davam etdirən gənclər mağaza konsultant, onlayn servisləri (dil bacarıqlarına əsasən) və s. kimi işləri seçirlər.

### Kənd təsərrüfatı torpaqlarının paylanma məsələsi

Torpaqların paylanma məsələsi bütün Gürcüstanda problemlidir. Bu məsələ ilə bağlı kənd təsərrüfatı mütəxəssisləri ilə aparılan müsahibələrə əsasən demək olar ki, 90-cı illərdə həyata keçirilən islahat bir çox problemlərlə səciyyələnirdi. Demək olar ki, bütün ekspertlər torpaqların fraqmentasiya problemindən danışır. Onların fikrincə, kiçik torpaqlı fermerlər başqa ölkələrdə istehsal olunan məhsullarla rəqabət apara bilmirlər. Buna görə də orta və ortadan yuxarı fermerlərin idxal olunan məhsullarla rəqabətədavamlı ola

biləcəyi torpaq sahələrinin genişləndirilməsinə və konsolidasiyasına ehtiyac var. Ekspertlərin bu fikrini Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi də bölüşür.

Gürcüstanın kənd təsərrüfatının və kənd yerlərinin inkişafının 2021-2027-ci illər üzrə strateji sənədinə əsasən, Gürcüstanda fermer təsərrüfatlarının əsas hissəsini kiçik torpaqlar təşkil edir. Fermerlərin 93,7 faizinin 2 hektardan az, cəmi 1,5 faizinin isə 5 hektardan çox torpaq sahəsi var.

Bu reallıq, strategiya sənədinin SWOT analizinə əsasən, Gürcüstan kənd təsərrüfatının zəif tərəfidir və konkret addımların atılmasını tələb edir. [35] Torpaqdan istifadə formalarına əsasən təsərrüfatların nəzdində olan kənd təsərrüfatı torpaq sahələri göstərir ki, strukturda 48 faizi əkin sahələri (377 445 ha), 38 faizi təbii biçin və örüklər (300 004 ha), 14 faizi isə çoxillik bitkilərdir. (109 567 ha) [36]. Etnik azlıqların məskunlaşdığı rayonlarda torpaqların bölüşdürülməsinə bu perspektivdən baxsaq görərik ki, kənd təsərrüfatı torpaqların böyük bir hissəsi tək-tək insanların əlindədir və əhali də tez-tez torpaq qıtlığından danışır. Kvemo Kartli bölgəsində yerli kəndlilər ailələrini dolandırmaq və minimum gəlir əldə etmək üçün kənd təsərrüfatı torpaqlarını "icarədardan" icarəyə götürmək məcburiyyətində olurlar. Yerli əhalinin fikrincə, bir hektar torpaq üçün illik vergi 500 laridən 1500 lari arasındadır. Kəndlilər iddia edirlər ki, 90-cı illərdə aparılan torpaq islahatı nəticəsində torpağın böyük bir hissəsi "icarədarların" əlinə keçib, əhali torpaq ala bilməyib.

> „Torpaq assimetrik bölünmüşdür, çünki kim təsirli idisə və komissiya üzvləri ilə yaxın əlaqəsi var idisə, onlar ən böyük və yaxşı torpaq sahələri almışdılar. O dövrdə dövlət sektorunda çalışan bu nüfuzlu şəxslər böyük torpaq hissələrinə malik idilər (Ninotsmindalı fermerlə/kəndli ilə geniş müsahibə, 58 yaşında);
>
> „Dmanisidə kəndlərdə otlaqların və biçin torpaqlarının böyük hissəsi bir nəfərin əlindədir. Dmanisi torpaqlarının hamısı Kaxa Okriaşvilinin atasınındır. Bizim isə heç nəyimiz yoxdur" (Dmanisili fermerlə geniş müsahibə, 61 yaşında).

Sovet İttifaqı parçalandıqdan sonra torpağın özəlləşmə prosesi həqiqətən də mühüm nöqsanlarla xarakterizə olunurdu. 1992-ci ilin mayın 7-də Ali Şura 10-cu Rezolyusiya əsasında torpağın özəlləşdirmə qanununda sahilkənarı bölgələrdə 21 kilometrlik dəhliz torpağının özəlləşdirmə məhdudiyyəti daxil edildi. Qeyd etmək lazımdır ki, bu məhdudiyyət Kvemo Kartli və Samsğe Cavaxeti bölgələrindən başqa regionlara şamil edilməmişdir.[37] Kvemo Kartlidə sözügedən dəhlizdə yerləşən torpaqlar tezliklə qeyri-rəsmi olaraq son illərdə Marneuli və Hucab yeparxiyası ilə əvəz edilmiş Merab Kostava icmasına məxsus olub. Əhali ilə söhbətdə yerli sakinlər tez-tez bu məsələni qaldırsalar da, bu barədə rəsmi məlumat yoxdur. 2021-ci ildə Marneuli Munisipalitetinin İkinci Kesalo kəndində Marneuli və Hucab Yeparxiyasının din xadimi ilə yerli sakinlər arasında qarşıdurma zamanı Yeparxiya nümayəndəsinin sözlərinə görə, Yeparxiyanın bu torpaqlara sərəncam vermək hüququ var idi (bu torpaqların rəsmi olaraq İqtisadiyyat Nazirliyinin balansında olmasına baxmayaraq), etnik azərbaycanlı əhalinin isə torpağı dövlət sərhədinin digər tərəfində idi[38].

Etnik azlıqların yaşadıqları bölgələrdə torpağın qeydiyyatı prosesi hələ də problemlidir. Buna ən yaxşı nümunə "Bax-Fakt" Araşdırmaçı Jurnalistlər Birliyinin son araşdırmasıdır, buna əsasən Düzəyrəm kəndi üzrə bələdiyyə nümayəndəsi Muxtar İsmayılov kənd torpaqlarını mənimsəyib. "Bax-Fakt"-ın jurnalist

---

[35] Gürcüstan Kənd Təsərrüfatı və Kəndin İnkişafı Strategiyası 2021-2027 https://mepa.gov.ge/Ge/Files/ViewFile/27243

[36] Buradaca

[37] Gvaramia, Alexander, 2013, Land Ownership and the Development of the Land Market in Georgia https://www.eda.admin.ch/content/dam/countries/countries-content/georgia/en/archive/resource_en_219898.pdf

[38] TDİ Kesaloda etnik azərbaycanlılarla qarşıdurma haqqında http://tdi.ge/ge/statement/tdi-kesaloshi-etnikur-azerbaijanelebtan-dapirispirebis-shesaxeb

araşdırmasına görə, İsmayılov vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, illər ərzində kəndin kollektiv mülkiyyətində olan 90 hektara qədər torpaq sahəsini rəsmiləşdirib[39]. Məsələ 2021-ci ildə Sosial Ədalət Mərkəzi tərəfindən hüquqi cəhətdən araşdırıldı və bu zaman Saqareco munisipalitetinin Düzəyrəm kəndində bələdiyyə sədrinin nümayəndəsinin mümkün cinayətlər törətməsi barədə əsaslı ehtimal yaradan hallar üzə çıxdı və bu da dərhal effektiv araşdırma tələb edirdi. Bunun əsasında Sosial Ədalət Mərkəzi Gürcüstan Prokurorluğuna bu məsələ ilə bağlı səmərəli araşdırma aparılması, adekvat hüquqi qiymət verilməsi və Muxtar İsmayılovun səlahiyyətlərinin dayandırılması xahişi ilə müraciət edib[40].

Kənd təsərrüfatı torpaqlarının qeydiyyatı prosesində dövlətin proaktiv cəlb olunma zərurəti sistem üçün də önəmlidir. Məhz bu məqsədlə, 2020-ci ildə Davamlı İnkişaf Agentliyi yarandı və onun da əsas səlahiyyətlərinə daxildir: torpağın qeydiyyata alınması, statistikanın aparılması, vahid məlumatlar bazasının təşkil edilməsi, torpaq resurslarından rasional və məqsədyönlü istifadə və müdafiə siyasətinin işlənib hazırlanması və monitorinqi, kənd təsərrüfatı təyinatlı torpağın davamlı idarəetməsinin dövlət proqramı siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi, kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyasının müəyyənləşdirilməsi və onların dəyişikliyi haqqında qərarın qəbul edilməsi, torpaqdan faydalanma ilə bağlı tematik xəritələrin hazırlanması və s.[41] Agentliyin səlahiyyətlərindən biri də dövlət balansında mövcud kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin icarəyə verilməsidir. Agentlik bu fəaliyyəti artıq icra edir, məlumat yalnız gürcü dilindədir və bu da dövlət dilini bilməyən Gürcüstan vətəndaşlarını çox qeyri-bərabər şəraitə salır.

Saqareco munisipalitetində əhali ilə keçirilən görüşlər zamanı kənd təsərrüfatı və maldarlıqla məşğul olan əhalinin çox hissəsi otlaq sahələrinin icarəyə verilməsi təcrübəsindən narazılıqlarını bildiriblər. Onların fikrincə, fermerlərin əksəriyyəti dövlət dilini tam bilmədiklərindən, bir çox hallarda dövlətin hərrac yolu ilə əhaliyə verdiyi torpaqları ikinci və/yaxud üçüncü şəxslərdən baha qiymətə icarəyə götürməyə məcbur olurlar.

“Biz gürcü dilini, kompüteri bilmədiyimizə görə, hərraclarda iştirak edə bilmirik. Buna görə də həmin şəxslərdən otlaq sahələrini daha baha almağa məcburuq. Sistemə yaxın olanlar bütün bunları bilirlər” (Saqarecodan olan fermer/kəndli ilə ətraflı müsahibə, 47 yaşında).

Qeyd etmək lazımdır ki, maldarlıqla məşğul olan etnik azərbaycanlı fermerlər tez-tez Cavaxetiya otlaqlarını da üçüncü şəxslərdən icarəyə götürürlər. Lakin bu üçüncü şəxslər əsasən yerli sakinlər deyillər. Etnik erməni əhalisi tez-tez torpaq ehtiyatlarının yerli olmayan fermerlər tərəfindən icarəyə götürülməsindən narazılıqlarını bildirirlər.

> „O zamanlar dövlətin əlindəki ehtiyatlardan yerlilər istifadə edirdilər, bəziləri biçin üçün, bəziləri otlaq üçün. İndi də əksər hallarda, otlaqları dövlət Kaxetidən gələn fermerlərə icarəyə verir” (Ninotsmindalı fermerlə/kəndli ilə geniş müsahibə, 48 yaşında);
>
> „Hər il yayla otlaqları üçün rəqabət gedir. Sovet dövründə hər kəndin öz otlağı var idi - yayda malların saxlanıldığı nəhəng ərazi. Sovet İttifaqı dağıldıqdan sonra aparılan torpaq islahatları nəticəsində b.a. yaylalar bölünməlidir. Bu gün bu yaylalar dövlətin mülkiyyətindədir. Son illərdə dövlət onu ya hərraca çıxarır, ya da müxtəlif insanlara/fermerlərə icarəyə verir. Yerli əhali isə torpaqsız qalır. Həmçinin dövlət orqanlarında çalışan şəxslər saxta üsulla əmlaka qeydiyyata

[39] Düzəyrəm oliqarxı, yəni mer nümayəndəsi kənd torpaqlarına necə sahib çıxıb? https://www.ifact.ge/duzagrama/

[40] Yormuğanlıda kəndlilərin torpaqlarının qanunsuz mənimsənilməsi praktikası vaxtında reaksiya göstərməyi tələb edir. https://socialjustice.org.ge/ka/products/iormughanloshi-glekhebis-mitsebis-ukanono-mitvisebis-praktika-droul-reagirebas-itkhovs

[41] Dayanıqlı Torpaq İdarəetmə Agentliyi – yeni İHHŞ, 800 min lari ilə maliyyələşdiriləcək https://bm.ge/ka/article/miwis-mdgradi-martvis-saagento---axali-ssip-romelic-800-atasit-larit-dafinansdeba/30454

alınırlar. Sonra özlərinə haqq qazandırırlar ki, kooperativləri var, ya da "mən almasam, Kaxetidən gələn maldarlara verəcəklər". Bir sözlə, torpaqlar problemlidir. Dövlət əvvəlcə düşünməlidir ki, orada yaşayan kəndlilərin torpağı varmı, yoxmu, nə üçün xaricə işləməyə gedirlər və bu məsələni öyrənsinlər, bura gəlib bu mövzuda danışsınlar" (Ninotsminda fermeri/kəndli ilə geniş müsahibə, 62 yaşında).

## Suvarma sistemləri, infrastruktur və kənd təsərrüfatı texnologiyaları

Gürcüstan yerüstü və yeraltı su ehtiyatlarına görə, Avropanın ən zəngin ölkələrindən biridir. Gürcüstanda adambaşına 14 000 $m^3$ şirin su düşür, halbuki Avropada ortalama 9 300 $m^3$ təşkil edir. Bu reallığa baxmayaraq, kənd yerlərində yaşayan insanlar üçün suvarma sistemlərinə əlçatma əsas problem olaraq qalır.

Sovet İttifaqı dağıldıqdan sonra Gürcüstanın suvarma sistemi çox pozulub. Gürcüstan Meliorasiya Xidmətinin məlumatına görə, Sovet İttifaqı dövründə Gürcüstanda öz-özünə axan su ilə təmin olunan torpaq sahəsi 278 min hektar idi. Halbuki 2012-ci ildə bu rəqəm 45 min hektara çatıb[42]. Gürcüstanın meliorasiya vəziyyətinə görə, bu göstərici 3 dəfə artaraq 138 700 hektarı təşkil edir. Bununla yanaşı, təşkilatın strateji baxışına görə, su ilə təmin olunan torpaqların sahəsi 200 min hektara çatmalıdır.[43]

Təəssüflər olsun ki, qeyd olunan məlumatlar rayonlar və munisipalitetlər üzrə bölünmür. Bununla belə, sahə işləri göstərir ki, Kvemo Kartli regionunda suvarma sistemləri ən aktual problemlərdən biri olaraq qalır. Bununla belə, əhali ilə aparılan müsahibələr zamanı suvarma və içməli su məsələsi də aktual məsələlərdən biri kimi qeyd olunub. Kvemo Kartlidən müsahiblər tez-tez işlərinin və məhsullarının su çatışmazlığından "yandığını" deyirlər. Buna baxmayaraq, Meliorasiya Xidməti hələ də onlardan suvarma suyu haqqını alır. Qeyd edək ki, bir hektara görə suvarma suyunun qiyməti 75 lari 75 tetridir. Kəndli/fermer tərəfindən bu məbləğin ödənilməməsi müqavilə əsasında müvafiq cərimələr və sanksiyalarla əlaqədardır, lakin meliorasiya xidməti, bağlanmış müqaviləyə baxmayaraq, hələ də fermeri/kəndlini lazımi su ilə təmin edə bilmir və fermer zərər çəkir, meliorasiya xidməti isə məhsul məhv olduqda, fermerə dəymiş ziyanın ödənilməsində məsuliyyət daşımır. Bu vəziyyət fermerlər tərəfindən meliorasiya xidmətinə inamsızlığı artırır və fermerlərin meliorasiya xidməti ilə müqavilə bağlamaqdan imtina etməsi hallarının sayını artırır.

„Su problemdir, suvarma suyu. Susuzluqdan hər şey yanır, xiyar, pomidor, bolqar bibəri. Sovet İttifaqı dövründə suvarma suyu olurdu. Amma hazırda yoxdur. Dövlətə hər hektar üçün 75 lari ödəyirik və sonra da bir-birimizlə suya görə dalaşırıq. Bizdə su ədalətsiz şəkildə bölüşdürülür və buna cavabdeh meliorasiya xidmətidir. Suvarma problemi ondan ibarətdir ki, suvarma suyu kifayət etmir və camaat növbədə gözləyir, amma sonra görürəm ki, mənim 1 hektarım yanır, amma o 20 hektar daha çox və güclü olduğundan, həlli yolu tapılır" (Marneulidən fermerlə/kəndli ilə geniş müsahibə, 57 yaşında).

Kiçik fermerlərə/kəndlilərə nisbətən iri fermerlərin suvarma suyu məsələsini daha asanlıqla həll etməsi tendensiyası digər munisipalitetlərdə də görünür.

"Böyük torpaqları olanların ayrıca suları var, birinci onlar suvarırlar, suyun paylanmasına cavabdeh olan şəxslərə "hörmət edirlər", növbə mənə çatanda da, suvara bilmirəm" (Bolnisidən olan fermer/kəndli ilə geniş müsahibə, 49 yaş).

Cavaxetidə də suvarma suyu və sistemləri məsələsi kəskin durur. Sakinlər havadan, yağışın yağmasından asılı olduqlarından gileylənirlər ki, əməyin bəhrəsini yalnız bu halda götürə bilərlər.

[42] Gürcüstanın Meliorasiya sistemi https://www.ag.ge/Ge/Mission
[43] Gürcüstanın Meliorasiyasının cari nəticələri https://www.ag.ge/Ge/Statistic

> “Fermerin uğuru, təkcə onun deyil, hamının uğuru uyğun infrastrukturun olması ilə bağlıdır. Bizdə infrastruktur yoxdur. Ümidimiz təbiətə bağlıdır, mövsümdə yağış yağsa, məhsul olacaq, yağmasa, heç nə olmayacaq. Dolu əleyhinə vasitələrimiz belə yoxdur, bir neçə kənd var ki, dolu artıq fermerlərin məhsulunu məhv edib. Bu nöqsanları aradan qaldırmağa çalışmırlar. Ninotsmindada su ehtiyatlarından başqa bir şey yoxdur, suvarma sistemlərimiz isə yoxdur (Bolnisa fermeri / kəndlisi ilə dərin müsahibə, 62 yaşında).

2021-ci ildə Bolnisinin üç kəndinin, Savaneti (İmirhəsən), Çapala (Qoçlu) və Samtredo (Cəfərli) sakinləri suvarma suyu tələbi ilə etiraz aksiyası keçiriblər. Maraqlıdır ki, bu kəndlərin suvarma sisteminin bir hissəsi özəl şəxs tərəfindən özgəninkiləşdirilib və bu dövlət ehtiyatını özəlləşdirməklə, suvarma suyunun bölgü məsələsində əsassız üstünlüyə malikdir və o da təkbaşına qərara ala bilər ki, yerli kəndlilərə suvarma suyunu nə vaxt paylasın. Bolnisi munisipalitetinin özünüidarəetmə orqanı Sosial Ədalət Mərkəzi ilə söhbətində adıçəkilən kəndlərin suvarma sistemlərinin özəl şəxsə verildiyini və buna görə də özünüidarəetmənin bu prosesə müdaxilə edə bilməyəcəyini təsdiqləyib[44]. Marneuli munisipalitetinin Daştəpə kəndində də hər il suvarma suyu problemi yaranır, buna görə də əhali demək olar ki, suvarma su tələbi ilə hər il aksiyalar keçirir.[45]

### Yeni biliyin əhali ilə paylaşması

Əhali ilə söhbət zamanı əsas suallardan biri də yeni biliklər və konsultasiya mərkəzlərinin dəstək məsələsi olub. Konsultasiya mərkəzlərinin əməkdaşları daim yeni biliklərin əhali ilə bölüşdürülməsi məsələsi üzərində işlədiklərini, fermerlərlə sıx əlaqədə olduqlarını desələr də, əhali müvafiq qurumlardan lazımi yeni biliklər almadıqlarını bildirir.

> “İnsan resurslarının çatışmazlığı problemdir. Məsələn, mən öz-özümə öyrənmişəm. Mənim nəzəri biliklərdən daha çox praktiki biliklərim var. İnternet vasitəsi ilə bitkilərin (kartof, buğda) hansı qayğıya ehtiyacı olduğuna baxıram və praktikada istifadə edirəm. İnternet də dəqiq olmur, bir istifadəçi bir şey deyir, o biri başqa şey deyir. Buna görə də munisipal səviyyədə peşə məktəblərinə ehtiyac var” (Ninotsmindadan olan fermer/kəndli ilə geniş müsahibə, 39 yaş).

Kənd təsərrüfatı Elmi-Tədqiqat Mərkəzinin işi ilə bağlı ekspertlərin bir hissəsinin qiymətləndirməsi də tənqididir. Onların fikrincə, mərkəz lazımi işləri görmür və bir çox hallarda kənd təsərrüfatında yeni biliyin aparılma prosesində onların rolları çox minimaldır.

> „[Mərkəz] yeni biliyin yaradılması üçün heç nə etmir. Bu, işlə təminat yeridir. Burada dəyərli heç nə yaradılmır. Buna görə də paylaşa biləcəyimiz heç nə yoxdur”. (Ekspertlə geniş müsahibə, Müsahibə №1)

Kənd Təsərrüfatı Elmi-Tədqiqat Mərkəzinin nümayəndəsinin sözlərinə görə, qurum yeni biliyin hazırlanması üzərində fəal çalışır. Bununla yanaşı, onları fəaliyyəti aşağıdan, fermerlərdən irəli gələn tələblərə əsaslanır. Mərkəz nisbətən yeni qurumdur və 2014-cü ildən fəaliyyət göstərir. Onun işinin əsas istiqamətləridir (1) heyvandarlıq (2), bitkiçilik (3), torpaq və (4) saxlanma/emal. Mərkəz təkrarsız üzüm sortlarının yetişdirilməsi, birillik bitki toxumları, buğda toxumu, şitillərin standartlaşdırılması, cins qaramalın və quşların yetişdirilməsi və s. üzrə aktiv işləyir. Bununla belə, Mərkəz əhali ilə konsultasiya mərkəzlərindən kənarda işləyir.

---

[44] Bolnisi munisipalitetinin üç kəndi suvarma suyu xaricində qalıb https://socialjustice.org.ge/ka/products/bolnisis-munitsipalitetis-sami-sofeli-sartsqavi-tsqlis-gareshea-darchenili

[45] Daştəpə sakinlərinin məhsulu susuzluqdan məhv olur - əhali suvarma suyu tələb edirhttps://www.marneulifm.ge/az/xeberler/article/45439-dastepe-kendinin-ehalisi-suvarma-suyu-probleminden-sikayetlenirler

„Konsultasiya Mərkəzi tematik təlimə görə zəng edir, camaatı təşkil edir və biz yerlilərlə görüşlər keçiririk. Səyyar gün təşkil edilir və nümunəvi işlər yaradılır” (Mərkəzin nümayəndəsi ilə geniş müsahibə).

Qeyd etmək lazımdır ki, mərkəzin internet saytında həqiqətən də kənd təsərrüfatı məsələləri ilə bağlı mühüm material var. Mərkəzin internet saytında kartof, pomidor, xiyar və digər bitkilərin texnologiyası ilə bağlı ətraflı məlumatlar, konkret məsləhətlər yerləşdirilən əsas səhifələrdən biri kənd təsərrüfatı ilə bağlı məsləhətlərdir. Amma məlumat yalnız gürcü dilindədir və dövlət dilini bilməyən fermerlər/kəndlilər üçün əlçatan deyil.

Yeni bilik və texnologiyalara əlçatmanın asanlaşdırılması təhlükəsiz qida ideyası və hüququ ilə birbaşa bağlıdır. Ona görə də bu məsələ təkcə kəndli və fermerlər üçün əkinçiliyi asanlaşdırmaq, əməyin və məhsulun məhsuldarlığını və vaxta qənaət etmək məqsədi daşımır, həm də daha çox ərzaq təhlükəsizliyi və əhalinin daha geniş maraqları ilə bağlıdır. Yeni biliklərin, metod və texnikaların verilməsi prosesində kənd yerlərində müşahidə olunan çətinliklər və iqlim dəyişiklikləri fonunda fermerlərin üzləşdiyi çətinliklər nəzərə alınmalıdır.

## Xüsusi proqramlar və yerli ehtiyaclar

Mövcud kənd təsərrüfatı proqramlarının və strateji sənədlərin müşahidəsi göstərir ki, dövlət proqramlarının əksəriyyəti kənd təsərrüfatının kompleks inkişafına yönəlib və demək olar ki, bütün proqramlar çoxlu bitkiləri əhatə edir. Bununla belə, üç bitki var, gürcü üzümləri, çay və sitrus, dövlət də bunlara məqsədyönlü kömək edir. 2008-2021-ci illərdə üzüm subsidiyaları 286,6 milyon lariyə çatıb. 2022-ci ildə isə üzümün alınmasına dövlət tərəfindən birbaşa subsidiya 60-70 milyon lari təşkil edəcək[46]. Digər tərəfdən, çay plantasiyalarının bərpası proqramı çərçivəsində plantasiyaların bərpası xərclərinin 70 faizi dövlət tərəfindən ödənilir. Sitrus meyvələrinə subsidiya proqramı çərçivəsində Acarıstan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi 2021-ci ildə 1 milyon laridən çox vəsait xərcləyib (bir kiloqram mandarinin subsidiya məbləği 0.1 laridir).[47]

Qeyd etmək lazımdır ki, 2021-2027-ci illərin strategiyasında və nə də başqa sənədlərdə bu bitkilərin eksklüziv dəstəkləndirildiyi ətraflı təsvir edilmir və sözügedən bitkilərlə yanaşı başqa bitkilərin və təsərrüfatların nə üçün dəstəkləndirilmədiyi izah edilmir, xüsusilə də, məsələn, Cavaxeti kəndliləri tez-tez kartofun saxlanılması, satışı və başqa problemlər haqqında danışırlar. Bununla belə, bəzən kəndlilər yetişdirdikləri məhsulları yerə tökməyə məcbur olurlar [48].

Yerli kəndlilərlə/fermerlərlə söhbət zamanı, onlar kənd təsərrüfatı proqramlarının regionlara əsasən necə bölüşdürüldüyü və nə üçün onların bölgələrinin istehsal etdiyi bitkiləri dəstəkləmək üçün xüsusi proqram və layihələrin olmadığı barədə öz müşahidələrini və suallarını bölüşürlər.

“Gürcüstanda kənd təsərrüfatının inkişafı üçün yaxşı imkan var. Mən Kaxetidə üzümçülərdən birinin qonağı olmuşdum, əslində burada da eyni problemlər var. Mən kiçik torpaq sahəsi, işçi qüvvəsi və ya infrastruktur baxımından nəzərdə tuturam. Amma bir məqam diqqəti cəlb edirdi ki, dövlət xidmətlərinin alınması prosesinə inteqrasiya olunmuş insanlar çoxdur. Bu hadisəni şərab

[46] Üzümün subsidiyalaşdırılması, şərab üçün deyil, brend üçün https://netgazeti.ge/business/627223/ Çay plantasiyalarının bərpası proqramı https://netgazeti.ge/business/627223/
[47] Acarıstan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin 2021-ci il üzrə hesabatı http://adjara.gov.ge/uploads/Docs/2206bf789344ea844a358ae0fb0fad1e.pdf
[48] Yalnız Alastanidə 700 ton kartof – Cavaxetidə kartof sata bilmirlər və onu meriyanın qarşısına atmağı planlaşdırırlar. https://bit.ly/3RZCO3x

mədəniyyətinin tarixi ilə əlaqələndirə bilərik. Və ya bu sektora sadəcə daha çox resurslar tətbiq edilə bilər. Bizim kartofun tarixi keçmişi yoxdur, sadəcə hər kəs bilir ki, Cavaxeti kartof və pendirin guşəsidir və kartofumuz həqiqətən dadlıdır" (Ninotsmindadan olan fermer/kəndli ilə geniş müsahibə, 58 yaş).

Kənd Təsərrüfatı Nazirliyində mövcud proqramlar və servislər bir çox hallarda regionlardakı problemləri görmür. Müxtəlif proqram haqqında məlumata malik olan kəndlilər/fermerlər bir çox hallarda müxtəlif amillərə görə, bu proqramlarla faydalana bilmirlər. Marneuli munisipalitetindən olan fermerlərdən/kəndlilərdən biri bildirir ki, kiçik torpaqlı kəndlilərin əksəriyyəti "Gələcəyi tətbiq et" çoxillik bitkilərin inkişafı proqramı ilə faydalana bilmirlər, çünki onlar üçün birillik bitkilərin yetişdirilməsi gündəlik yaşayış mənbəyi ilə bağlıdır və onlar belə bir proqramlara qoşula bilməzlər.

"Gələcəyi tətbiq et" proqramı birillik bitkiləri maliyyələşdirmir. Müvafiq olaraq, camaat deyir ki, gələcəyi tətbiq edənə qədər ac qala bilərlər, buna görə də yeganə yol buna qədər mövcud fəaliyyəti davam etdirməkdir, nəinki gələcəyi tətbiq et proqramında iştirak etmək və 10 il ərzində məhsulun yetişməsini gözləməkdir" (Marneuli kəndlisi ilə dərin müsahibə, 53 yaşında).

Ninotsminda kəndlilərinin də eyni fikirləri var. Kəndlilərdən/fermerlərdən birinin fikrincə:

"Demək olar ki, hər il dövlət ortaq maliyyələşdirmə ilə texnikanın (traktor, kombayn) alınmasını elan edir ki, burada 60 faizi dövlət, 40 faizi sahibkar və ya 50-50 faizi proqram hesabına ödənilir. İndi baxın, mənim 6-7 inəyim, 2 hektar torpağım var və kartofçuluqla da məşğulam, əgər texnikanın qiyməti 100 min laridirsə, onun 40 faizi 40000 laridir. İlboyu bu qədər gəlirim olmayacaq, bankdan kredit götürmək üçün elə bir əmlakım da yoxdur, müvafiq olaraq bu texnikanı iri fermer alacaq. Ola bilsin ki, iri fermerin o texnikaya ehtiyacı da olmasın, amma dövlətin köməyi ilə onu yarı qiymətinə alır, sonra öz qiymətinə başqalarına satır (Ninotsminda, Marneuli fermerləri ilə geniş müsahibə, 49 yaşlı).

Fermerlərlə söhbətdə ən kəskin problemlərdən biri də satış bazarları məsələsidir. Çox vaxt yerli sakinlər satış prosesində dövlətin dəstəyini görmədiklərini bildirirlər. Cavaxetidə bir çox hallarda fermerlər/kəndlilər məhsullarını atmalı olurlar ki, bu da əhalinin üzərinə əlavə yük qoyur. Əslində isə yerli və ya milli səviyyədə mütəşəkkil, yaxşı idarə olunan və sabit satış bazarı (o cümlədən saxlama soyuducuları vasitəsilə) mövcud olmadıqda, ixracın inkişafı və idxalın əvəzlənməsi barədə fermerlər/kəndlilərlə danışmaq çətindir.

## Yekun və tövsiyələr

Mövcud geosiyasi böhran, COVID pandemiyası və Rusiya-Ukrayna müharibəsi fonunda dövlətlərin uzunmüddətli perspektivdə öz kənd təsərrüfatının inkişafı və möhkəmlənməsinin qayğısına qalmalı olduqları bir daha göstərildi. Bu məsələ Gürcüstanda da mühüm problemdir, çünki artıq qeyd edildiyi kimi, Gürcüstanın istehlak səbətinin 80 faizi idxal mallarının payına düşür. Müvafiq olaraq, kənd təsərrüfatının dəstəklənməsinə dövlət və beynəlxalq təşkilatlar tərəfindən qoyulan investisiyalar mühüm rol oynayır. Bununla belə, bu resursların, proqramların və xidmətlərin ədalətli, bərabər və inklüziv bölüşdürülməsi xüsusilə etnik azlıqların məskunlaşdığı regionlarda mühüm problemdir.

Qeyd etmək lazımdır ki, Gürcüstanda etnik azlıqların məskunlaşdığı regionlarda kənd təsərrüfatı aparıcı iqtisadiyyatdır. Lakin kənd təsərrüfatı proqramlarının və xidmətlərinin planlaşdırılmasında bu resursların həmin bölgələrdə yaşayan insanlara əlçatması üçün dövlətin xüsusi işi görünmür. Üstəlik, bu bölgələrdə mövcud suvarma infrastrukturu mühüm çətinliklərlə şərtlənir, kənd təsərrüfatı texnikası problemi

mövcuddur, fermerlərin yeni biliklərə əlləri çatmır, hətta bu bölgələrin ehtiyaclarına və kontekstə yönəlmiş xüsusi proqramlar yoxdur.

Yuxarıda sözügedəni nəzərə alaraq, Gürcüstan hökumətinə və Ətraf Mühitin Müdafiəsi və Kənd Təsərrüfatı Nazirliyinə, eləcə də beynəlxalq donor təşkilatlarına tövsiyələrimizi təqdim etmək istərdik:

1. **Nazirlik Gürcüstan Kənd Təsərrüfatı və Kənd İnkişafının 2021-2027-ci illər üzrə dövlət strategiyasını və müvafiq illik fəaliyyət planlarını müxtəliflik və inklüzivlik baxımından dəyərləndirməli, hərtərəfli araşdırmalar və iştirakçı, konsultasiya platformalarının yaradılması yolu ilə kənd təsərrüfatı ilə məşğul olan etnik azlıq icmalarından olan özünüməşğulların və fermerlərin ehtiyaclarını nəzərə almalıdır;**
2. **Dövlət kənd təsərrüfatı proqramlarının işlənib hazırlanması, planlaşdırılması və həyata keçirilməsi zamanı kiçik torpaq sahəsi olan özünüməşğul şəxslərin maraqlarını və ehtiyaclarını nəzərə almalı, onların fəaliyyətini həvəsləndirməlidir;**
3. **Nazirliyin müvafiq qurumları xidmət və layihələrə əlçatma və etnik azlıqların bunlarda iştirakının nəticələri barədə etnik markerlərlə məlumat verməyə başlamalıdır;**
4. **Nazirlik öz xidmətləri və proqramları, həm də onunla bağlı işin aparılması (ərizələrin qəbulu, şifahi ünsiyyət və s.) haqqında məlumatı azlıqların dillərində təqdim etməli və dövlət dilini bilməyən Gürcüstan vətəndaşları üçün sözügedən xidmətlərdən məhdudiyyətsiz istifadəni təmin etməlidir. Tərcümə prosesi ilə yanaşı, agentliklər etnik azlıqların məlumatlandırılmasını və iştirakını dəstəkləmək üçün xüsusi strategiya hazırlamalıdırlar;**
5. **Nazirlik və müvafiq qurumlar anbar infrastrukturunun, o cümlədən soyuducuların təşkilini təmin etməlidirlər;**
6. **Nazirlik və müvafiq qurumlar yerli/milli satış bazarlarının yaradılmasını/inkişafını təmin etməlidirlər ki, fermerlər/kəndlilər arasında kənd təsərrüfatı iqtisadiyyatı və onunla bağlı sosial gözləntilərin sabitlik hissi yaransın;**
7. **Nazirliyin müvafiq qurumları ötən əsrin 90-cı illərində və sonrakı dövrdə torpaq islahatı prosesində buraxılmış nöqsanları öyrənməli və bu bölgələrdə yaşayan fermerlərin ehtiyaclarından irəli gələrək, qeyd olunan nöqsanların aradan qaldırılması və ya yüngülləşdirilməsi üçün siyasət işləyib hazırlamalıdırlar, o cümlədən dövlətin balansında olan digər torpaqların qanuni mexanizmlərlə onlara verilməsi yolu ilə;**
8. **Bununla belə, Dayanıqlı Torpaqların İdarə Edilməsi və Torpaqlardan İstifadənin Monitorinqi üzrə Milli Agentlik dövlət balansında olan torpaqların tender qaydası ilə icarəyə verilmə prosesində xüsusi addımlar atmalı və etnik azlıqların ehtiyaclarını nəzərə almalıdır.**
9. **Nazirlik və “Gürcüstan Meliorasiyası” MMC etnik azlıqların məskunlaşdığı bölgələrdəki fəaliyyətlərini nəzərdən keçirməli və suvarma sistemlərinin inkişafına üstünlük verməlidir. Bununla yanaşı, fermer müqavilədə nəzərdə tutulmuş məbləği ödədiyi halda, “Gürcüstan Meliorasiyası” MMC tərəfindən su verilmədiyi halda, dövlət fermerə kompensasiyanın ödənilməsini təmin etməlidir.**
10. **Nazirlik və onun tabeliyində olan qurumlar öz işçilərinin etnik qruplara münasibətinin dəyişdirilməsi üzərində iş aparmalıdırlar ki, bu da ehtiyaclarından irəli gələrək, kənd təsərrüfatı ilə məşğul olan kəndlilərə dəstəyin artırılması üçün onların biliyini, həssaslığını və motivasiyasını artırsın.**
11. **Nazirlik və Kənd İnkişaf Agentliyi etnik azlıqların məskunlaşdığı bölgələrdə konsultasiya mərkəzlərində etnik azlıqların dilini bilən işçilərin sayını artırmalıdır.**
12. **Kənd Təsərrüfatı Elmi Tədqiqat Mərkəzi azlıqların məskunlaşdığı bölgələrdəki problemlərin və imkanların öyrənilməsi üçün fəal işə başlasın və özünüməşğullara və yerli fermerlərə kənd təsərrüfatı sahəsində yeni biliklər versin.**

**13. Gürcüstanın kənd təsərrüfatının dəstəklənməsi prosesində beynəlxalq və donor təşkilatlar Gürcüstan hökumətindən həyata keçiriləcək proqramların müxtəliflik və inklüzivlik baxımından qiymətləndirilməsini tələb etməlidir.**